# BAKI UNİVERSİTETİNİN
# XƏBƏRLƏRİ

ВЕСТНИК
БАКИНСКОГО УНИВЕРСИТЕТА

NEWS
OF BAKU UNIVERSITY

SOSİAL-SİYASİ
*elmlər seriyası*

*серия*
СОЦИАЛЬНО-ПОЛИТИЧЕСКИХ НАУК

*series of*
SOCIAL-POLITICAL SCIENCES

№ 3, 2025

**Bakı – 2025**

*Baş redaksiya heyəti:*

**Babayev E.S.** (baş redaktor), **Kazımzadə A.H.** (baş redaktorun müavini), **Əliyeva İ.N.**, **Məmmədov Y.Ə.**, **Əliyev İ.Ə.**, **Paşayeva N.A.**, **Rəcəbov M.R.** (məsul katib).

*Seriyanın redaksiya heyəti:*

**Məlikova M.F.** (redaktor), **Vahidov F.Q.** (redaktorun müavini), **Hacıyev Z.C.** (məsul katib), **Abbasbəyli A.N.**, **Əhmədov Ə.C.**, **Əliyev B.H.**, **Əlizadə H.Ə.**, **İsmayılov R.R.**, **Məhərrəmov A.M.**, **Qasımov A.M.**, **Məmmədov R.F.**, **Rüstəmov İ.Ə.**, **Əliyev Ə.İ.**, **Həsənalıyev Z.M.**, **Əliyeva K.R.**

*© **Bakı Dövlət Universiteti, 2025***

## BEYNƏLXALQ MÜNASİBƏTLƏR VƏ İQTİSADİYYAT

# TÜRK DÖVLƏTLƏRİ ARASINDA AZƏRBAYCAN: BİRLƏŞDİRİCİ GÜC VƏ YENİ ROLU

**G.M.QULİYEVA**
***Bakı Dövlət Universiteti***
***ORCİD 0009-0003-9754-3588***
***gulgun2004@mail.ru***

*Bu məqalə, müasir beynəlxalq münasibətlər sistemində Azərbaycanın Türk dövlətləri arasında oynadığı birləşdirici və strateji rolu təhlil edir. Azərbaycanın geosiyasi mövqeyi, iqtisadi potensialı, mədəni əlaqələri və diplomatik təşəbbüsləri onun Türk dünyasında artan nüfuzunu şərtləndirir. Xüsusilə 2020-ci il Vətən müharibəsindən sonra Azərbaycanın regional güc kimi ortaya çıxması və bu gücünü Türk dövlətləri ilə əməkdaşlıqda effektiv şəkildə istifadə etməsi yeni mərhələnin başlanğıcı kimi qiymətləndirilir. Məqalədə vurğulanır ki, Azərbaycan Türk Dövlətləri Təşkilatı (TDT) çərçivəsində fəal siyasət yürüdür və bu təşkilatın möhkəmlənməsi üçün real addımlar atır. Enerji resursları, nəqliyyat dəhlizləri (xüsusilə Zəngəzur dəhlizi perspektivi), logistika imkanları və regional sabitliyin təminində Azərbaycan mühüm körpü rolunu oynayır. Bu kontekstdə Bakı-Tbilisi-Ceyhan neft kəməri, Bakı-Tbilisi-Qars dəmir yolu və Orta Dəhliz kimi layihələr Azərbaycanın həm regional, həm də qlobal əhəmiyyətini artırır. Eyni zamanda, Azərbaycan ortaq mədəni və tarixi dəyərlərin qorunması və təşviqi istiqamətində də Türk dövlətləri ilə sıx əməkdaşlıq edir. Türk dili, ortaq tarix, mədəniyyət və mənəvi dəyərlər Azərbaycanın yumşaq güc siyasətində əsas vasitəyə çevrilmişdir. Məqalənin sonunda qeyd olunur ki, Azərbaycan yalnız iqtisadi və enerji resursları baxımından deyil, həm də ideoloji və strateji baxımdan Türk dövlətləri arasında əlaqələndirici və birləşdirici qüvvəyə çevrilməkdədir. Bu, təkcə Azərbaycan üçün deyil, bütün Türk dünyasının güclənməsi və birliyinin dərinləşməsi baxımından əhəmiyyətli bir prosesdir.*

**Açar sözlər:** Türk Dövlətləri Təşkilatı, enerji diplomatiyası, tranzit rolu, türk dünyası, inteqrasiya, enerji siyasəti, Zəngəzur dəhlizi, regional əməkdaşlıq, geosiyasət, diplomatik fəallıq, mədəni inteqrasiya, orta dəhliz

**https://doi.org/10.30546/209300.305.2025.3.018**

## GİRİŞ

Son onilliklərdə beynəlxalq münasibətlər sistemində müşahidə olunan çoxqütblülük tendensiyası və regional əməkdaşlıq modellərinin güclənməsi

fonunda Türk Dövlətləri Təşkilatının (TDT) yaranması və inkişafı diqqətəlayiq hadisələrdəndir. TDT çərçivəsində dövlətlərarası siyasi, iqtisadi və mədəni inteqrasiyanın gücləndirilməsi istiqamətində atılan addımlar, yalnız ümumtürk həmrəyliyini möhkəmləndirmir, eyni zamanda Avrasiya məkanında yeni güc balanslarının formalaşmasına da təsir göstərir. Bu prosesin mərkəzində isə geosiyasi mövqeyi, enerji resursları və diplomatik fəallığı ilə seçilən Azərbaycan mühüm birləşdirici rol oynayır. Azərbaycan həm təşəbbüskar mövqeyi, həm də praktiki əlaqələndirmə imkanları ilə türk dövlətləri arasında körpü rolunu oynayır. Bakı-Tbilisi-Qars və Bakı-Tbilisi-Ceyhan kimi mühüm layihələrlə regionda iqtisadi əlaqələrin genişlənməsinə töhfə verməklə yanaşı, TDT çərçivəsində qəbul edilən qərarların icrasında da aktiv iştirak edir. Şuşa Bəyannaməsi və Türk Dövlətlərinin Zirvə Görüşlərindəki çıxışlar Azərbaycanın yalnız siyasi deyil, həm də mədəni və mənəvi liderlik iddialarını nümayiş etdirir.

Məqalənin məqsədi Azərbaycanın türk dünyasında oynadığı bu yeni və çoxşaxəli rolu elmi təhlil etmək, onun təşəbbüskarlıq potensialını, enerji və tranzit diplomatiyasındakı yerini, eləcə də TDT çərçivəsindəki əlaqələndirici funksiyalarını dəyərləndirməkdən ibarətdir. Bu çərçivədə əsas tədqiqat sualı belədir: **Azərbaycanın Türk Dövlətləri Təşkilatındakı inteqrativ rolu regiondakı geosiyasi və geoiqtisadi münasibətlərə necə təsir edir?**

Metodoloji baxımdan tədqiqatda müqayisəli təhlil, sənəd analizi və sistemli yanaşma kimi elmi metodlardan istifadə olunur. Azərbaycan və digər türk dövlətlərinin rəsmi sənədləri, beynəlxalq təşkilatların hesabatları, elmi ədəbiyyat və analitik mənbələr əsas istinad bazasını təşkil edir. Eyni zamanda, regiondakı son proseslərə dair aktuallıq baxımından məqalə təkcə retrospektiv deyil, həm də perspektiv analizinə əsaslanır. Beləliklə, bu məqalə Azərbaycanın türk dövlətləri arasında təşəbbüskar, əlaqələndirici və diplomatik funksiyalarını əhatəli şəkildə təqdim etməyi və gələcək inteqrasiya proseslərinə dair elmi əsaslandırılmış tövsiyələr irəli sürməyi qarşıya məqsəd qoyur.

## 1. Türk Kimliyi və Mədəni Vəhdət

Türk kimliyi, tarixi, dil və mədəniyyət vasitəsilə formalaşan kollektiv şüur və aidiyyət hissidir. Bu kimlik, türk xalqlarının ortaq keçmişi, dəyərləri və mədəni irsi əsasında zamanla inkişaf etmişdir. Türk dünyasında müxtəlif coğrafi ərazilərdə yaşayan xalqların müxtəlifliyi olsa da, ortaq dil ailəsi, tarix və mədəni ənənələr bu kimliyi möhkəmləndirən əsas amillərdir [24, 148]. Mədəni vəhdət isə türk xalqları arasında ortaq dəyərlərin, ənənələrin və mədəni irsin qorunması və inkişaf etdirilməsi prosesidir. Bu vəhdət, TÜRKSOY kimi beynəlxalq təşkilatların fəaliyyəti, ortaq mədəni layihələr, dilin qorunması və inkişafı, eləcə də ortaq tarix və mədəniyyətin təşviqi ilə təmin edilir [26, 91]. Mədəni vəhdətin əsas məqsədi türk dünyasında birlik hissini güclən-

dirmək, qarşılıqlı anlaşmanı artırmaq və beynəlxalq arenada türk mədəniyyətinin nüfuzunu yüksəltməkdir.Türk kimliyinin və mədəni vəhdətin güclənməsi, həmçinin regional inteqrasiyanın və siyasi birliyin dəstəklənməsi üçün vacibdir. Ortak dəyərlər və mədəniyyət üzərində qurulan kimlik, türk dövlətlərinin bir-birinə olan bağlılığını artıraraq, gələcəkdə daha sıx əməkdaşlıq üçün zəmin yaradır [2, 133].

## 2. Müasir Geosiyasətdə Türk Dövlətlərinin Rolu

Türk dünyasının müasir geosiyasi mənzərəsi üzv dövlətlərin regional və qlobal təsir imkanları ilə müəyyənləşir. Azərbaycan, Türkiyə, Qazaxıstan, Özbəkistan, Qırğızıstan və Türkmənistan hər biri öz strateji mövqeləri və xarici siyasət prioritetləri ilə Türk dünyasının ümumi geosiyasi gücünü formalaşdırır.

**Azərbaycan**, Cənubi Qafqazda enerji resurslarına zənginliyi və nəqliyyat dəhlizlərinin kəsişmə nöqtəsində yerləşməsi ilə regional sabitlik və inkişafın təminatçısı kimi çıxış edir. "Zəngəzur dəhlizi" kimi layihələrlə Azərbaycan türk dünyasını fiziki olaraq birləşdirən körpü rolunu gücləndirir [8, 156].

**Türkiyə** isə NATO üzvü və Avroatlantik məkandakı strateji mövqeyi ilə Türk dünyasının lider dövlətidir. Həm siyasi, həm iqtisadi, həm də hərbi gücü ilə Türkiyə digər türk dövlətlərinə nümunə olmaqla yanaşı, çoxvektorlu xarici siyasəti vasitəsilə regional və qlobal aktorlarla əlaqələri genişləndirir

**Qazaxıstan**, Orta Asiyanın ən böyük iqtisadiyyatı olaraq, enerji və ticarət sahəsində regional liderdir. Qazaxıstan, həmçinin Şanxay Əməkdaşlıq Təşkilatı və Avrasiya İqtisadi İttifaqı kimi təşkilatlarda aktiv iştirak edərək Türk dünyasının geosiyasi imkanlarını genişləndirir .

**Özbəkistan** Orta Asiyanın mərkəzində yerləşməsi və böyük əhalisi ilə mühüm regional oyunçudur. Özbəkistanın müstəqil və balanslaşdırılmış xarici siyasəti, xüsusilə iqtisadi islahatları və regional əməkdaşlığı təşviq etməsi Türk dünyasının ümumi strateji mövqeyini möhkəmləndirir.

**Qırğızıstan** siyasi sabitlik və iqtisadi inkişaf baxımından mürəkkəb vəziyyətə baxmayaraq, Türk dünyasının mədəni və regional inteqrasiyasında fəal iştirak edir. Qırğızıstanın çoxmillətli quruluşu və demokratiya təcrübəsi, Türk dövlətləri arasında dialoq və əməkdaşlıq üçün mühüm platforma yaradır.

**Türkmənistan** isə neytral statusunu qoruyaraq regional enerji siyasətində öz yerini tutur. Türkmənistanın enerji resursları və strateji mövqeyi, xüsusilə qaz ixracı sahəsində Türk dünyasının geosiyasi gücünə əlavə dəyər qatır.

Türk dövlətlərinin müasir geosiyasi rolu yalnız coğrafi mövqeyindən irəli gəlmir, həm də onların beynəlxalq münasibətlər sistemində enerji, nəqliyyat, təhlükəsizlik və normativ güc sahələrində artan iştirakından qaynaqlanır. Bu dinamika gələcəkdə Türk dövlətlərinin daha sıx inteqrasiyası və ortaq geosiyasi strategiyalar formalaşdırması üçün möhkəm zəmin yaradır

## 3. Azərbaycanın geosiyasi və geoiqtisadi üstünlükləri

Azərbaycanın Türk dünyasında birləşdirici güc kimi çıxış etməsinin əsas səbəblərindən biri onun əlverişli geosiyasi mövqeyidir. Qafqaz regionunda yerləşən Azərbaycan həm Avropa, həm də Asiya arasında körpü funksiyası yerinə yetirir. Xəzər dənizinə çıxışı olan, Rusiya, İran, Türkiyə və Mərkəzi Asiya dövlətləri ilə qonşuluq münasibətlərinə malik olan bu ölkə, regionlararası əməkdaşlıq üçün unikal bir coğrafi məkan təşkil edir. Bu xüsusiyyət, Azərbaycanın Türk Dövlətləri Təşkilatı çərçivəsindəki rolunu daha da əhəmiyyətli edir [12, 178]. Geoiqtisadi baxımdan isə Azərbaycan enerji resursları ilə zəngin ölkə olaraq Avropa və Asiya bazarları üçün strateji əhəmiyyət daşıyır. Bakı-Tbilisi-Ceyhan (BTC) neft boru kəməri, Bakı-Tbilisi-Ərzurum (BTE) qaz kəməri və Trans-Anadolu Qaz Boru Kəməri (TANAP) kimi layihələr Azərbaycanı enerji marşrutlarının əsas əlaqələndiricisinə çevirib. Bu layihələr təkcə enerji təminatını deyil, həm də türk dövlətləri arasında qarşılıqlı iqtisadi asılılığı gücləndirir [19, 176]. Azərbaycan həm də "Orta Dəhliz" adlandırılan Şərq-Qərb beynəlxalq nəqliyyat marşrutu üzrə əsas ölkələrdən biridir. Bu dəhliz Çin, Orta Asiya və Avropa arasında yüklərin daşınmasını sürətləndirir və Mərkəzi Asiya ölkələrinin qlobal iqtisadiyyata çıxış imkanlarını artırır. Bakı-Tbilisi-Qars (BTQ) dəmir yolu xətti bu dəhlizin əsas dayaqlarından biridir. Azərbaycanın bu marşrutda tranzit ölkə funksiyası onu TDT daxilində logistik inteqrasiyanın mərkəzinə çevirir [25, 33]. Bununla yanaşı, Azərbaycanın sabit siyasi sistemi və balanslaşdırılmış xarici siyasət kursu da onun türk dövlətləri ilə əlaqələrinin möhkəmlənməsinə şərait yaradır. Bakı rəhbərliyi həm ikitərəfli, həm də çoxtərəfli platformalarda konstruktiv və praqmatik siyasət yürüdərək, həm regiondakı ziddiyyətlərin yumşaldılmasında, həm də iqtisadi inteqrasiyanın təşviqində fəal rol oynayır [26, 54]. Azərbaycanın həm geosiyasi, həm də geoiqtisadi imkanlarının səmərəli şəkildə inteqrasiya layihələrinə yönəldilməsi, onu Türk Dövlətləri arasında yalnız mərkəzi coğrafi mövqeyə malik deyil, həm də strateji qərarların formalaşmasında təsirli aktora çevirir. Bu kontekstdə Azərbaycan təkcə fiziki dəhlizlərin deyil, həm də siyasi və diplomatik kanalların formalaşmasına töhfə verir.

## 4. Türk Dövlətləri Təşkilatında Azərbaycanın fəallığı

Azərbaycan Türk Dövlətləri Təşkilatının (TDT) formalaşmasında və inkişafında aparıcı rola malik olan ölkələrdən biridir. TDT-nin ilkin mərhələsi 1992-ci ildə baş tutmuş Türk dövlətləri rəhbərlərinin Zirvə görüşləri ilə başlamış, 2009-cu ildə isə Naxçıvan Sazişi ilə təşkilati çərçivəyə keçid baş vermişdir. Azərbaycanın ev sahibliyi etdiyi bu mühüm saziş, təşkilatın institusional əsaslarını müəyyən etmiş və əməkdaşlığı strateji çərçivəyə yönəltmişdir [26, 76]. Azərbaycan bu təşkilatda həm siyasi, həm iqtisadi, həm də mədəni sahələr üzrə təşəbbüskar mövqe sərgiləyir. Xüsusilə 2021-ci ildə Şuşa

Bəyannaməsinin imzalanması ilə Azərbaycan və Türkiyə arasında strateji müttəfiqliyin türk dünyası kontekstində daha da möhkəmləndirilməsi təşkilatın gələcəyi üçün yeni dinamika yaratmışdır. Bu sənəd yalnız ikitərəfli münasibətləri deyil, bütün Türk dünyasında inteqrasiyanın yeni mərhələyə keçidini ifadə edir [24, 195]. TDT çərçivəsində keçirilən sammitlərdə Azərbaycan Prezidentinin çıxışları və irəli sürdüyü təşəbbüslər, təşkilatın fəaliyyət istiqamətlərini müəyyən edən əsas konturlar sırasındadır. Xüsusilə Bakı və Səmərqənd sammitlərində Azərbaycanın regional layihələrə dəstək verməsi və əməkdaşlığın institusional əsaslarını gücləndirmək çağırışları diqqət çəkmişdir. 2022-ci ildə Türk Dövlətləri Təşkilatının Naxçıvanda təşkil edilməsi planlaşdırılan "Türk Universiteti" ideyası da Azərbaycanın mədəni və elmi inteqrasiyaya verdiyi önəmi göstərir. Azərbaycan TDT çərçivəsində logistik, enerji və informasiya texnologiyaları üzrə müxtəlif işçi qruplarının fəaliyyətində aktiv iştirak edir. Bu iştirak, yalnız daxili təşkilati koordinasiyanı deyil, eyni zamanda türk dövlətləri arasında qarşılıqlı asılılığı gücləndirir və siyasi etimadın artmasına şərait yaradır. TDT-nin yeni çağırışlar qarşısında çevik və funksional fəaliyyət göstərə bilməsi üçün Azərbaycanın təklif etdiyi islahatlar da təşkilat daxilində strateji planlaşdırmanın mühüm tərkib hissəsinə çevrilmişdir.

Bütün bunlarla yanaşı, Azərbaycanın təşkilatda oynadığı rol təkcə texniki və logistik sahələrlə məhdudlaşmır. Azərbaycan türklüyün ideoloji və tarixi daşıyıcısı olaraq, Türk Dünyasında mədəni-siyasi yaddaşın qorunması və gələcək nəsillərə ötürülməsi baxımından da mühüm vəzifə daşıyır. Şuşa və Naxçıvan kimi tarixi məkanların təşkilat çərçivəsində simvolik məna qazanması, Azərbaycanın yalnız maddi deyil, mənəvi liderlik iddiasını da möhkəmləndirir.

## 5. Enerji diplomatiyası və inteqrativ rol

Azərbaycanın Türk dövlətləri arasında birləşdirici gücə çevrilməsində enerji diplomatiyası mühüm yer tutur. Azərbaycanın zəngin karbohidrogen ehtiyatları və bu resursların beynəlxalq bazarlara çıxarılmasında qazandığı təcrübə onu yalnız enerji ixracatçısı deyil, həm də regional enerji əməkdaşlığının təşəbbüskarı və əlaqələndiricisinə çevirib. Bu baxımdan, enerji sahəsində həyata keçirilən strateji layihələr Azərbaycanın Türk Dövlətləri Təşkilatı çərçivəsindəki inteqrativ funksiyalarını daha da gücləndirir. Azərbaycanın təşəbbüsü ilə həyata keçirilmiş Bakı-Tbilisi-Ceyhan (BTC) və Bakı-Tbilisi-Ərzurum (BTE) layihələri həm regional əməkdaşlığı təşviq etmiş, həm də Avropanın enerji təhlükəsizliyinə töhfə vermişdir [19, 106]. Daha sonrakı mərhələdə isə Trans-Anadolu Qaz Boru Kəməri (TANAP) və Trans-Adriatik Boru Kəməri (TAP) vasitəsilə Xəzər hövzəsindən Avropaya uzanan enerji bağlantıları formalaşmışdır. Bu marşrutlar yalnız Azərbaycan qazını deyil, potensial olaraq Türkmənistan və Qazaxıstan kimi digər türk dövlətlərinin resurslarının da ixracı üçün mühüm infrastruktur bazası yaradır [12, 203].

Türkmənistan ilə Azərbaycan arasında enerji sahəsində son illərdə müşahidə olunan yaxınlaşma, xüsusilə "Dostluq" yatağına dair razılaşma, Xəzər dənizində əməkdaşlıq perspektivlərini genişləndirib. Bu addım, Transxəzər qaz boru kəməri ideyasını yenidən aktuallaşdırmış və Mərkəzi Asiya qazının Azərbaycan üzərindən dünya bazarlarına çıxışı üçün siyasi və texniki baza yaratmışdır [21, 52]. Bununla yanaşı, Azərbaycan TDT daxilində enerji resurslarının idarə olunmasında sinxronlaşdırılmış siyasətlərin həyata keçirilməsi üçün müxtəlif platformalarda təkliflər irəli sürür. Bu təşəbbüslərə yaşıl enerji mənbələri, hidrogen texnologiyaları və enerji təhlükəsizliyi üzrə koordinasiya mexanizmləri də daxildir. Xüsusilə Zəngilan və Cəbrayılda bərpa olunan enerji zonalarının yaradılması və bu təcrübənin türk dövlətləri ilə paylaşılması Azərbaycanın enerji siyasətinin yeni mərhələyə qədəm qoyduğunu göstərir [20].

Beləliklə, Azərbaycanın enerji diplomatiyası təkcə iqtisadi deyil, eyni zamanda siyasi və strateji məna daşıyır. Enerji layihələri vasitəsilə formalaşan qarşılıqlı asılılıq, Türk dünyasında daha dərin inteqrasiyanın yolunu açır. Azərbaycan bu prosesdə həm enerji ixracatçısı, həm də siyasi koordinasiya platformasının yaradıcı qüvvəsi kimi çıxış edir.

## 6. Tranzit və nəqliyyat dəhlizlərində əlaqələndirici mövqe

Azərbaycanın geoiqtisadi strategiyasının əsas istiqamətlərindən biri nəqliyyat-tranzit imkanlarının genişləndirilməsi və bu imkanlar vasitəsilə regionda logistik mərkəzə çevrilməkdir. Bu çərçivədə Azərbaycan, yalnız Şərq-Qərb deyil, eyni zamanda Şimal-Cənub nəqliyyat dəhlizlərinin kəsişmə nöqtəsində yerləşən və müxtəlif beynəlxalq marşrutların birləşdiyi strateji məkan kimi çıxış edir.

Orta Dəhliz (Middle Corridor) adlandırılan beynəlxalq nəqliyyat marşrutu Çin Mərkəzi Asiya Xəzər dənizi Cənubi Qafqaz Türkiyə Avropa Azərbaycanın iştirakı ilə daha çevik və təhlükəsiz nəqliyyat marşrutuna çevrilməkdədir. Bakı-Tbilisi-Qars (BTQ) dəmir yolu bu dəhlizin əsas texniki dayaqlarındandır və Azərbaycan üçün nəqliyyat diplomatiyasının əsas alətlərindən birinə çevrilmişdir [3, 52]. BTQ vasitəsilə Çinlə Avropa arasında yüklər 15 günə çatdırıla bilir, bu isə həm vaxt, həm də maya dəyəri baxımından rəqabət üstünlüyü yaradır.

Azərbaycanın təşəbbüsü ilə reallaşdırılan Bakı Beynəlxalq Dəniz Ticarət Limanı (Ələt limanı) regionun ən iri və müasir logistika mərkəzlərindən biridir. Liman multimodal daşımaların inkişafı, konteyner daşımalarının artırılması və Orta Dəhlizin effektivliyinin yüksəldilməsi baxımından həlledici rol oynayır. Ələt azad iqtisadi zonası isə bu dəhliz üzərində yerləşən ölkələrlə iqtisadi inteqrasiyanın dərinləşdirilməsi məqsədi daşıyır [29, 83].

Zəngəzur dəhlizi isə Azərbaycanın Türk dünyası ilə fiziki bağlantılarını

tamamlamaq baxımından xüsusi əhəmiyyətə malikdir. Bu dəhlizin açılması ilə Azərbaycan Naxçıvan üzərindən Türkiyə və daha sonra Mərkəzi Asiya ilə birbaşa nəqliyyat əlaqəsini bərpa etmiş olacaq. Bu, yalnız iqtisadi deyil, həm də strateji və geosiyasi nəticələr doğuracaq. Zəngəzur dəhlizi türk dövlətlərinin birləşdirilməsi konsepsiyasının praktiki təcəssümü kimi qiymətləndirilir [6]. Bütün bu layihələr Azərbaycanın türk dövlətləri arasında tranzit əlaqələrinin əlaqələndiricisi rolunu gücləndirir. Nəqliyyat dəhlizləri vasitəsilə yaradılan logistik əməkdaşlıq türk dövlətləri arasında qarşılıqlı iqtisadi asılılığı artırmaqla yanaşı, siyasi sabitliyin dəstəklənməsinə və regional inteqrasiyanın dərinləşməsinə töhfə verir.

**Türk Dünyası Birliyinin strateji perspektivləri**, müxtəlif sahələrdə əməkdaşlığın inkişaf etdirilməsi və ortaq məqsədlər uğrunda vahid bir yanaşmanın formalaşdırılmasına yönəlir. Bu perspektivlər, Türk dünyasının birliyinin güclənməsinə, regional və beynəlxalq səviyyədə daha təsirli bir aktor olmalarına xidmət edir. Türk Dünyası Birliyinin strateji baxışlarını aşağıdakı şəkildə izah etmək mümkündür:

1. Mədəni və Dil Birliyi

Türk Dünyası Birliyinin əsasında ortaq dil və mədəniyyət dayanır. Bu kontekstdə, Türk dilinin və mədəniyyətinin qorunması, yayılması və bu mədəni bağların gücləndirilməsi əsas məqsədlərdəndir. Strateji baxımdan, Türk dili danışan ölkələr arasında təhsil, mədəni layihələr və media sahələrində əməkdaşlıq təşviq edilir, Türk mədəniyyəti dünya səviyyəsində tanıdılır. Türk Konseyi və TÜRKSOY kimi təşkilatlar mədəni əməkdaşlığı artırmaq məqsədilə müxtəlif fəaliyyətlər həyata keçirirlər.

2. İqtisadi Birlik və Əməkdaşlıq

Türk Dünyası Birliyi iqtisadi əməkdaşlığın və ticarətin artırılmasını, ortaq bazarların yaradılmasını hədəfləyir. İqtisadi strateqiyalarda, enerji, nəqliyyat və infrastruktur layihələrinə xüsusi diqqət yetirilir. Bu sahədə, Türk ölkələri arasında iqtisadi inteqrasiyanı gücləndirmək, ortaq ticarət sazişləri, gömrük birliyi və ya azad ticarət zonasının yaradılması mümkün ola bilər. Həmçinin Türk Dünyası ölkələrinin qlobal ticarət şəbəkələrində daha güclü bir mövqe tutmaları üçün ortaq investisiyalar və inkişaf layihələri dəstəklənir.

3. Siyasi Birlik və Diplomatik Əməkdaşlıq

Türk Dünyası, siyasi əməkdaşlıq sahəsində də vahid bir strategiya izləyir. Bu, ölkələrin beynəlxalq arenada bir-birinə dəstək olmalarını, ortaq xarici siyasət istiqamətləri və diplomatik əlaqələrin gücləndirilməsini əhatə edir. Türk Dünyası ölkələri, xüsusilə regional münaqişələrdə və beynəlxalq məsələlərdə ortaq mövqeyin qəbul edilməsi məqsədini güdürlər. Türk Konseyi və digər regional qurumlar vasitəsilə siyasi əlaqələr artırılaraq, Türk dünyasının qlobal siyasətdə daha təsirli bir mövqe tutması təmin edilə bilər.

4. Təhlükəsizlik və Hərbi Əməkdaşlıq

Türk Dünyası, regional təhlükəsizliyin təmin edilməsi üçün birgə hərbi və təhlükəsizlik əməkdaşlığını inkişaf etdirir. Bu strateji yanaşma, terrorizm, sərhəd təhlükəsizliyi və digər beynəlxalq təhdidlərə qarşı vahid bir mövqeyin formalaşdırılmasını hədəfləyir. Həmçinin Türk Dünyası ölkələri arasında hərbi təlimlər, ortaq hərbi layihələr və müdafiə sənayesi sahəsində əməkdaşlıq da genişləndirilir. Bu şəkildə, regional və qlobal təhlükəsizlik məsələlərində güclü bir müttəfiqlik yaradılır.

5. İnsan Haqları və Sosial İnkişaf

Türk Dünyası Birliyinin sosial inkişaf sahəsindəki strategiyası, insanların rifahını artırmaq və sosial sahələrdə ortaq layihələr həyata keçirməkdir. Bu, təhsil, səhiyyə, işsizlik və sosial bərabərlik kimi məsələləri əhatə edir. Türk ölkələri arasında sosial əməkdaşlıq və birgə inkişaf layihələri, bu bölgələrdə yaşayan xalqların həyat səviyyəsini yüksəltmək məqsədini güdür.

6. Beynəlxalq Strateji Yanaşmalar

Türk Dünyası Birliyi, beynəlxalq müstəvidə öz mövqeyini gücləndirmək üçün strateji tərəfdaşlıqlar qurur və balanslaşdırılmış xarici siyasət yürüdür. Bu, həm regional, həm də qlobal səviyyədə Türk Dünyasının maraqlarını qorumağa xidmət edir. Həmçinin bu birliyin gücləndirilməsi üçün müxtəlif beynəlxalq təşkilatlarda birgə iştirak, ortaq layihələr və tərəfdaşlıq müqavilələri imzalanır.

## 7. Azərbaycanın diplomatik təşəbbüsləri və siyasi əlaqələndirmə rolu

Azərbaycanın Türk Dövlətləri Təşkilatı çərçivəsindəki funksiyaları təkcə iqtisadi və enerji sahələrilə məhdudlaşmır. Ölkə eyni zamanda siyasi və diplomatik platformalarda əlaqələndirici rol oynayaraq, türk dövlətləri arasında həmrəyliyin möhkəmləndirilməsində fəal iştirak edir. Bu funksiyanın əsasını Azərbaycanın balanslı və çoxtərəfli xarici siyasət kursu təşkil edir ki, bu da onu türk dövlətləri üçün etibarlı tərəfdaş və strateji əlaqələndirici aktora çevirir. Azərbaycan diplomatik səviyyədə həm ikitərəfli, həm də çoxtərəfli münasibətlərin qurulmasında təşəbbüskar çıxış edir. TDT çərçivəsində keçirilən sammitlərdə, xüsusi ilə Səmərqənd (2022) və Astana (2023) görüşlərində Prezident İlham Əliyevin çıxışları Türk dövlətlərinin regional və beynəlxalq proseslərə vahid mövqedən yanaşmasının zəruriliyini vurğulamış, bu istiqamətdə praktiki mexanizmlərin yaradılmasını təklif etmişdir [5, 98]. Azərbaycan, həmçinin digər beynəlxalq platformalarda da Türk dünyasının maraqlarını koordinasiya etməyə çalışır. Məsələn, Qoşulmama Hərəkatına sədrliyi dövründə (2019–2023) Azərbaycan Türk dövlətlərinin qlobal səviyyədə ortaq maraqlarını müdafiə etmiş, pandemiya dövründə türkdilli ölkələr arasında tibbi və humanitar yardımların təşkili üçün diplomatik vasitəçi qismində çıxış etmişdir [17, 74]. Bununla yanaşı, Azərbaycan üçün TDT daxilində

siyasi inteqrasiyanın gücləndirilməsi məqsədilə institutlaşma və hüquqi mexanizmlərin qurulması prioritet təşkil edir. Bakı tərəfindən irəli sürülən təkliflər arasında vahid media platformasının yaradılması, ortaq diplomatik akademiya və xarici siyasət institutlarının qurulması ideyaları, xüsusilə diqqətəlayiqdir. Bu təşəbbüslər Türk dövlətləri arasında koordinasiyanı artırmaqla yanaşı, uzunmüddətli strateji tərəfdaşlığın əsaslarını möhkəmləndirə bilər.

Azərbaycan həm də vasitəçilik səyləri ilə seçilir. Ölkə, Ermənistanla münasibətlərin normallaşdırılması prosesində əldə etdiyi təcrübəni türk dövlətləri arasında potensial münaqişələrin həlli və qarşılıqlı etimadın artırılması üçün diplomatik nümunə kimi təqdim edir. Bu, Azərbaycanın regiondakı sabitlik və əməkdaşlıq proseslərinə töhfə verən siyasi məsuliyyətini əks etdirir. Nəticə etibarilə, Azərbaycanın diplomatik təşəbbüsləri və siyasi əlaqələndirmə funksiyası türk dövlətləri arasında siyasi konsensusun formalaşmasına, institusional koordinasiyanın inkişafına və regional sabitliyin möhkəmlənməsinə xidmət edir. Bu funksiyalar Azərbaycanın Türk dünyasındakı strateji rolunu daha da dərinləşdirir.

**Nəticə**

Yuxarıda aparılan təhlillər göstərir ki, Azərbaycan Türk Dövlətləri Təşkilatında (TDT) getdikcə artan strateji rola malik olmaqla yanaşı, təşəbbüskar, əlaqələndirici və diplomatik funksiyalar baxımından da mühüm mövqedə qərarlaşır. Geosiyasi mövqeyi, enerji resurslarının ixracında qazandığı təcrübə və müasir nəqliyyat-tranzit infrastrukturu Azərbaycanı türk dövlətləri arasında təbii bir körpü və əlaqələndirici mərkəzə çevirib.

Azərbaycanın təşəbbüsü ilə həyata keçirilən enerji və nəqliyyat layihələri (BTC, TANAP, BTQ, Ələt limanı, Zəngəzur dəhlizi və s.) yalnız iqtisadi əməkdaşlığı deyil, həm də siyasi inteqrasiyanı təşviq edən vasitələrə çevrilmişdir. Diplomatik sahədə isə Azərbaycan türk dövlətlərinin ortaq maraqlarının müdafiəsində, çoxtərəfli beynəlxalq platformalarda çıxışlarında və institusional təkliflərində fəallığı ilə seçilir.

Bu kontekstdə Azərbaycanın TDT daxilində mövqeyinin daha da möhkəmləndirilməsi və türk dünyası üzrə strateji əlaqələndirici funksiyasının dərinləşdirilməsi üçün aşağıdakı **tövsiyələr** irəli sürülə bilər:

1. **İnstitusional əlaqələrin dərinləşdirilməsi:**
   Azərbaycan, ortaq diplomatik akademiya, media platforması və strateji planlaşdırma mərkəzlərinin yaradılması təşəbbüsünü daha da inkişaf etdirməlidir. Bu institutlar vasitəsilə türk dövlətləri arasında koordinasiya səviyyəsi artar.
2. **Enerji əməkdaşlığında rəqəmsal inteqrasiya:**
   Ortaq enerji bazarı, tənzimləyici çərçivələr və rəqəmsal enerji mübadiləsi sistemlərinin qurulması təşviq edilməlidir. Azərbaycan bu sahədə liderlik rolunu davam etdirməli, Xəzər hövzəsində inteqrasiyanı dərinləşdirməlidir.

3. **Zəngəzur dəhlizinin tam reallaşdırılması:**
   Bu layihə yalnız Azərbaycan üçün deyil, bütün türk dünyası üçün strateji əhəmiyyət kəsb edir. Dəhlizin sürətlə reallaşması üçün diplomatik səylər intensivləşdirilməli, alternativ infrastruktur planları da hazırlanmalıdır.
4. **Rəqəmsal və yaşıl inteqrasiyanın təşviqi:**
   Türk dövlətləri arasında texnologiya, süni intellekt, bərpa olunan enerji və iqlim dəyişikliyi ilə bağlı ortaq layihələrin hazırlanmasında Azərbaycan təşəbbüskarlığını davam etdirməlidir.
5. **Humanitar və mədəni diplomatiyanın gücləndirilməsi:**
   Ortaq türk tarixinin, mədəniyyətinin və kimliyinin təşviqi məqsədilə Azərbaycan TDT çərçivəsində mədəni tədbirlərin, təhsil proqramlarının və elmi əməkdaşlığın genişləndirilməsini davam etdirməlidir.

Türk Dünyası Birliyinin strateji perspektivləri, hər bir ölkənin suverenliyinə və milli maraqlarına hörmətlə yanaşaraq, birgə əməkdaşlıq və inteqrasiya yönündə atılan addımları əhatə edir. Bu birliyin güclənməsi, Türk dünyasının daha güclü və təsirli bir regional və beynəlxalq aktor olmasına şərait yaradır.

Nəticə etibarilə, Azərbaycan yalnız iqtisadi və geosiyasi baxımdan deyil, həm də ideoloji və strateji baxımdan Türk dünyasında birləşdirici güc funksiyasını daşımaqdadır. Bu rolun davamlı və sistemli şəkildə gücləndirilməsi regionun sabitliyi, inteqrasiyası və qlobal miqyasda təsir imkanlarının artması üçün zəruri amillərdəndir.

**ƏDƏBİYYAT**


1. Aliyev. I. Post-müharibə dövründə Azərbaycan-Türkiyə münasibətləri və regional inteqrasiya imkanları. - Bakı: Elm və Təhsil, - 2022. – s. 74.
2. Aydın M. Türk Dünyası: Geopolitik Güc ve Entegrasyon Perspektifi. - Ankara: SETA. Yayınları. - 2022. – s. 280
3. ADB. (2021). Middle Corridor: Trade Potential and Connectivity Challenges. Asian Development Bank. https://www.adb.org, - p.74
4. Azərbaycan Xarici İşlər Nazirliyi. Şuşa Bəyannaməsi. https://www.mfa.gov.az 2021
5. Azərbaycan Xarici İşlər Nazirliyi. TDT Zirvə Görüşlərində Prezident İlham Əliyevin çıxışları. https://www.mfa.gov.az. 2023
6. Balayeva L. Azərbaycanın Orta Dəhlizdə geoiqtisadi rolu. - Bakı: Qlobal Siyasət Mərkəzi. - 2022, - s. 128
7. Balayeva, L. Azərbaycanın nəqliyyat siyasətində strateji dəhlizlər. Bakı: Avrasiya İnteqrasiya Mərkəzi. - 2022, - 120 s.
8. Balcı, A. Türk Devletleri Teşkilatı ve Türk Dünyasının Geleceği, - 2022, - p. 270. - Ankara: SETA Yayınları, - s. 270
9. Bennigsen A., Wimbush, S. E. Muslim National Communism in the Soviet Union: A Revolutionary Strategy for the Colonial World. University of Chicago Press. 1986, p. 243.
10. Yesevi A. Türk Dünyasında Kimlik ve İnteqrasiya Problemleri. Türk Akademiyası Nəşriyyatı.Bottom of Form 2021, - p. 100
11. Yıldız B. Türk dünyasının birliyi: Tarixi köklər və müasir reallıqlar. İstanbul: Türk

Dünyası Araşdırmaları Vəqfi, - 2021, - 190 s.
12. Cornell S. E., Ismailzade F. The South Caucasus: A regional overview. Silk Road Paper. Central Asia-Caucasus Institute. - 2005, - s. 280.
13. Cornell S. E. (2017). The Southern Gas Corridor: Challenges and opportunities. Atlantic Council. https://www.atlanticcouncil.org,p 74
14. Mehdiyev E. Türk dünyasının geosiyasəti, - 2014. - s 220.
15. Məmmədova F. Türkdilli dövlətlərin əməkdaşlığı: siyasi və iqtisadi aspektlər. - 2016, - s.180.
16. Məmmədov R. Türk xalqları tarixi. - 2008, - s. 300.
17. NAM Secretariat. Non-Aligned Movement: Pandemic Response and Multilateralism. Bakı: NAM Headquarters, - 2022, - s. 100.
18. Peyrouse S. Turkic Transnationalism and the Ankara Nexus In Eurasian Integration and the Turkish Factor. Brussels: EUCAM Papers, - 2015, - p.88.
19. Shaffer B. Energy politics. Philadelphia: University of Pennsylvania Press, 2011, p 203
20. SOCAR. Azərbaycanın enerji strategiyasında yaşıl keçid. https://www.socar.az 2022
21. Sulaimanov A. (2020). Trans-Caspian Energy Integration and Central Asia. Central Asian Affairs, 7(1), 45–67. https://doi.org/10.30965/22142290-00701003
22. Kaya M., & Korkmaz B. Non-sovereign Turkic communities and identity politics in Eurasia. Journal of Turkic Studies, 18(1), 55–74. 2023
23. Kortunov A. “The Strategic Vacuum and the Rise of Middle Powers.” Russian International Affairs Council (RIAC). - 2023, - p.30
24. Tekin N. Türk Kimliği ve Kültür Tarihi. İstanbul: Tarih Vakfı Yurt Yayınları. - 2015, - s.300
25. Tokayev K. Central Asia in Global Transformation. Astana Dialogue, - 2022, - p. 40
26. TÜRKSOY. Annual Report. www.turksoy.org 2023, - p.100
27. Turkic Council. Turkic World Vision 2040. Retrieved from https://www.turkkon.orgTop of FormBottom of FormTop of FormBottom of Form 2021. – p.80
28. TürkPA. Naxçıvan Sazişindən TDT-yə: İnkişaf mərhələləri və perspektivlər. https://www.turk-pa.org, 2021, s50
29. UNECE. Trans-Caspian Corridor and Logistics Hubs in Eurasia. United Nations Economic Commission for Europe. https://unece.org, 2022, - p. 90

## АЗЕРБАЙДЖАН СРЕДИ ТЮРКСКИХ ГОСУДАРСТВ: ОБЪЕДИНЯЮЩАЯ СИЛА И ЕЕ НОВАЯ РОЛЬ

**Г.М.ГУЛИЕВА**

### РЕЗЮМЕ

В статье анализируется объединяющая и стратегическая роль Азербайджана среди тюркских государств в контексте современных международных отношений. Геополитическое положение Азербайджана, его экономический потенциал, культурные связи и дипломатические инициативы способствуют усилению его влияния в тюркском мире. Особенно после Победной войны 2020 года Азербайджан зарекомендовал себя как региональная держава, эффективно использующая этот статус для укрепления сотрудничества с другими тюркскими государствами, что ознаменовало новый этап региональной интеграции. В статье подчеркивается активное участие Азербайджана в Организации тюркских государств (ОТГ) и предпринятые им конкретные шаги по институциональному укреплению этой структуры. Энергетические

ресурсы, транспортные коридоры — особенно перспективный Зангезурский коридор, логистические возможности и усилия по обеспечению региональной стабильности делают Азербайджан важным мостом в регионе. Такие проекты, как нефтепровод Баку–Тбилиси–Джейхан, железная дорога Баку–Тбилиси–Карс и Срединный коридор, повышают значимость Азербайджана как на региональном, так и на глобальном уровне. Одновременно Азербайджан активно содействует сохранению и популяризации общих культурных и исторических ценностей тюркских народов. Тюркский язык, общая история, культурное наследие и духовные ценности являются важными элементами стратегии мягкой силы Азербайджана. В заключение делается вывод, что Азербайджан становится не только экономическим и энергетическим центром, но и идеологическим и стратегическим связующим звеном между тюркскими государствами. Этот процесс важен как для самого Азербайджана, так и для консолидации и укрепления всего тюркского мира.

**Ключевые слова.** тюркские государства, Организация тюркских государств (ОТГ), энергетическая политика, Зангезурский коридор, региональное сотрудничество, геополитика, дипломатическая активность, культурная интеграция, срединный коридор

## AZERBAIJAN AMONG THE TURKIC STATES: A UNIFYING FORCE AND ITS NEW ROLE

**G.M.QULIYEVA**

## SUMMARY

This article analyzes Azerbaijan's unifying and strategic role among the Turkic states within the framework of contemporary international relations. Azerbaijan's geopolitical position, economic potential, cultural ties, and diplomatic initiatives have significantly enhanced its influence within the Turkic world. Particularly after the 2020 Patriotic War, Azerbaijan emerged as a regional power and has effectively utilized this status to strengthen cooperation with other Turkic states, marking a new phase in regional integration. The article highlights Azerbaijan's active participation in the Organization of Turkic States (OTS) and its concrete steps towards institutional consolidation. The country's energy resources, transportation corridors especially the potential Zangezur Corridor logistical capabilities, and efforts to ensure regional stability make Azerbaijan a crucial bridge in the region. Projects like the Baku-Tbilisi-Ceyhan oil pipeline, the Baku-Tbilisi-Kars railway, and the Middle Corridor increase Azerbaijan's regional and global importance. At the same time, Azerbaijan actively contributes to preserving and promoting common cultural and historical values among the Turkic nations. The Turkish language, shared history, cultural heritage, and spiritual values are central tools in Azerbaijan's soft power strategy. The article concludes that Azerbaijan is becoming not only an economic and energy hub but also an ideological and strategic connector among Turkic states. This is a fundamental process for the strengthening and deepening of unity not only for Azerbaijan, but also for the entire Turkic world.

**Keywords:** Turkish states, Organization of Turkic States (OTS), energy policy, Zangezur corridor, regional cooperation, geopolitics, diplomatic activity, cultural integration, middle corridor

# MÜNDƏRİCAT

## HÜQUQ

**Səmədova Ş.T.**
Süni intellekt və cinayət hüququ: məsuliyyət problemləri ............................5
**Seykenov K.K., Samatuli B.A.**
Jeti jarği – Qazaxıstan hüquq tarixini formalaşdıran
Qazax xanlığının qanunlar toplusu ................................................................21
**İsmayılov X.C.**
Azərbaycanda konstitusiyaçılığın tarixi-hüquqi təkamülünün bəzi
aspektləri (XX əsrin 50-60-cı illəri) ..............................................................34
**Məmmədov R.K.**
Ətraf mühitin mühafizəsi – dövlətlərin beynəlxalq hüquqi öhdəliklərinin
zəruri şərti kimi: yumşaq hüquqdan (soft law) bərk hüquqa (hard law)
doğru inkişaf ...................................................................................................55
**Nağızadə E.**
Kiberterrorçuluq – terrorçuluğun yeni forması kimi: anlayışı,
ictimai təhlükəliliyi, cinayət-hüquqi vasitələrlə mübarizə məsələləri ...........75
**Səmədov M.N.**
İnsan hüquqlarının hüquqi təminetmə üsulları ..............................................89

## BEYNƏLXALQ MÜNASİBƏTLƏR VƏ İQTİSADİYYAT

**Quliyeva G.M.**
Türk dövlətləri arasında Azərbaycan: birləşdirici güc və yeni rolu...............102

## SOSİOLOGİYA

**Mikayılova N.E.**
Müasir cəmiyyətin mənəvi əsasları haqqında.................................................114

## PEDAQOGİKA

**Qasımova L.N.**
Etnopedaqogikanın tərkib hissələrindən biri olan dastanlarda
tərbiyə məsələləri.........................................................................................128

# СОДЕРЖАНИЕ

## ПРАВО

**Самедова Ш.Т.**
Искусственный интеллект и уголовное право:
вопросы ответственности ....................................................................5
**Сейтенов К.К., Бектен А.С.**
Жеті жарғы – свод законов казахского ханства,
формирующий историю права Казахстана ...............................................21
**Исмайлов Х.Дж.**
Некоторые аспекты историко-правовой эволюции
конституционализма в Азербайджане (50-60-е годы XX века) ...............34
**Мамедов Р.К.**
Защита окружающей среды – как необходимое условие
международно-правовых обязательств государств:
развитие от мягкого права к жестокому праву .........................................55
**Нагизаде Э.**
Кибертерроризм-как новая форма терроризма: понятие,
общественная опасность, вопросы борьбы уголовно-правовыми
средствами.................................................................................................75
**Самедов М.Н.**
Правовые способы обеспечения прав человека.........................................89

## МЕЖДУНАРОДНЫЕ ОТНОЕНИЯ И ЭКОНОМИКА

**Гулиева Г.М.**
Азербайджан среди тюркских государств:
объединяющая сила и ее новая роль..........................................................102

## СОЦИОЛОГИЯ

**Микаилова Н.Э.**
О духовных основах современного общества ............................................114

## ПЕДАГОГИКА

**Гасимова Л.Н.**
Провещательная проблематика в посланиях как компонент
этнопедагогики .........................................................................................128

# CONTENTS

## LAW

**Samadova Sh.T.**
Artificial intelligence and criminal law: responsibility issues........................5
**Seitenov K.K., Bekten A.S.**
Zheti zhargy – code of laws of the Kazakh khanate shaping
the history of the law of Kazakhstan ..............................................................21
**Ismayilov Kh.J.**
Some aspects of the historical and legal evolution
of constitutionalism in Azerbaijan (50-60s of the 20th century)....................34
**Mammadov R.K.**
Environmental protection -as a necessary condition for the international
legal obligations of states: development from soft law to hard law ...............55
**Nagizade E.**
Cyberterrorism as a new form of terrorism: concept, public danger,
issues of combating criminal law means ........................................................75
**Samadov M.N.**
Legal methods for ensuring human rights ......................................................89

## POLITICAL SCIENCE AND ECONOMY

**Quliyeva G.M.**
Azerbaijan among the turkic states: a unifying force and its new role...........102

## SOCIOLOGY

**Mikayilova N.E.**
On the moral foundations of modern society .................................................114

## PEDAGOGY

**Gasimova L.N.**
Educational issues in epistles, as a component of ethnopedagogy .................128

## MÜƏLLİFLƏRİN NƏZƏRİNƏ!

Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının sədrinin 07.05.2021-ci il tarixli 48-01-947/16 saylı məktubunu əsas tutaraq «Bakı Universitetinin Xəbərləri» jurnalının redaksiya heyəti bildirir ki, nəşr etdirmək üçün təqdim edilən məqalələr aşağıdakı qaydalar əsasında tərtib edilməlidir:

1. Təqdim olunan məqalənin mətni – A4 formatında, sətirlərarası – 1 intervalla, yuxarıdan – 5 sm, aşağıdan – 3,75 sm, soldan – 4 sm, sağdan – 3,5 sm, Times New Roman – 12 (Azərbaycan dilində – latın əlifbası, rus dilində – kiril əlifbası, ingilis dilində – ingilis əlifbası ilə) şrifti ilə yığılmalıdır.

2. Hər bir məqalənin müəllifinin (müəlliflərinin) adı və soyadı tam şəkildə yazılmalı, elektron poçt ünvanı, çalışdığı müəssisənin (təşkilatın) adı göstərilməlidir.

3. Hər bir məqalədə UOT indekslər və ya PACS tipli kodlar və açar sözlər verilməlidir (açar sözlər məqalənin və xülasələrin yazıldığı dildə olmalıdır).

Məqalələr və xülasələr (üç dildə) kompüterdə çap olunmuş şəkildə disklə birlikdə təqdim olunur, disklər geri qaytarılmır!

Əlyazmalar kvartalın əvvəlindən bir ay keçməmiş verilməlidir.

4. Hər bir məqalənin sonunda verilmiş ədəbiyyat siyahısı Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının «Dissertasiyaların tərtibi qaydaları» barədə qüvvədə olan Təlimatının «İstifadə edilmiş ədəbiyyat» bölməsinin əlavə 4.1 tələbləri əsas götürülməlidir.

**Kitabların (monoqrafiyaların, dərsliklərin və s.) biblioqrafik təsviri kitabın adı ilə tərtib edilir**. Məs.: Qeybullayev Q.Ə. Azərbaycan türklərinin təşəkkülü tarixindən. - Bakı: Azərnəşr, - 1994. - 284 s.

**Müəllifi göstərilməyən və ya dörddən çox müəllifi olan kitablar (kollektiv monoqrafiyalar və ya dərsliklər) kitabın adı ilə verilir**. Məs.: Kriminalistika: Ali məktəblər üçün dərslik / K.Q.Sarıcalinskayanın redaktəsi ilə. - Bakı: Hüquq ədəbiyyatı, - 1999. - 715 s.

**Çoxcildli nəşrə aşağıdakı kimi istinad edilir.** Məs.: Azərbaycan tarixi: [7 cilddə], - Bakı: Elm, - 2000. IV c., - 456 s.

**Məqalələrin təsviri aşağıdakı şəkildə olmalıdır**. Məs.: Vəlixanlı N.M. X əsrin ikinci yarısı – XI əsrdə Azərbaycan feodal dövlətlərinin qarşılıqlı münasibətləri və bir daha «Naxçıvanşahlıq» haqqında // - Bakı: AMEA-nın Xəbərləri. Tarix, fəlsəfə, hüquq seriyası, - 2001. № 3. - s. 120-129.

**Məqalələr toplusundakı və konfrans materiallarındakı mənbələr belə göstərilir**. Məs.: Məmmədova G.H. Azərbaycan memarlığının inkişafında Heydər Əliyevin rolu / Azərbaycan Respublikasının Prezidenti H.Ə.Əliyevin 80 illik yubileyinə həsr olunmuş elmi-praktik konfransının materialları. - Bakı: Nurlan, - 2003. - s.3-10.

**Dissertasiyaya istinad belə olmalıdır.** Məs.: Süleymanov S.Y. Xlorofill-zülal kompleksləri, xlorplastların tilakoid membranında onların struktur-molekulyar təşkili və formalaşmasının tənzimlənməsi: Biol. elm. dok. dis. - Bakı, 2003. - 222 s.

**Dissertasiyanın avtoreferatına da eyni qaydalarla istinad edilir, yalnız «avtoreferat» sözü əlavə olunur.**

**Qəzet materiallarına istinad belə olmalıdır**. Məs.: Məmmədov M.A. Faciə janrının tədqiqi // «Ədəbiyyat və incəsənət» qəz., - Bakı, 1966, 14 may.

**Arxiv materiallarına aşağıdakı kimi istinad edilir**. Məs.: Azərbaycan Respublikası MDTA: f.44, siyahı №2, iş №26, vərəq.3-5.

İstifadə edilmiş ədəbiyyat siyahısında son 5-10 ilin ədəbiyyatına üstünlük verilməlidir.

Redaktoru: ***Məryəm Qədimova***

Korrektoru: ***Solmaz Babaşova***

Kompüter tərtibçisi: ***Azadə İmanova***

Çapa imzalanmışdır: 09.10.2025
Formatı: 70x100 1/16. Həcmi 9,0 ç.v. Sayı 100.
Bakı Dövlət Universitetinin Nəşr Evində çap olunmuşdur.
AZ 1148, Bakı ş., ak. Z.Xəlilov küçəsi, 33.
Tel: (+99412) 538 87 39 / 538 50 16
e-mail: bduneshrevi@bsu.edu.az
www.bsu.edu.az